*UOT 372.3/.4*

# KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN TƏLİM FƏALİYYƏTİNİN-MOTİVASİYASININ ARTIRLMASI VƏ DƏYƏRLƏNDİRİLMƏSİ YOLLARI

**Aysel Musa qızı Əmirova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0003-4928-1894
**E-mail:** ayselamirova10@gmail.com

***Açar sözlər:*** *motivasiya, dəyərləndirmə, pedaqoji texnologiyalar, fərdi yanaşma, təhsil keyfiyyəti*
***Ключевые слова:*** *мотивация, оценка, педагогические технологии, индивидуальный подход, качество образования*
***Key words:*** *motivation, assessment, pedagogical technologies, individual approach, quality of education*

İnsan fəaliyyətinin mürəkkəb fəaliyyət növlərindən biri təlimdir. O, şagirdlərin biliklər sistemini mənimsəmələrinə və qazanılmış bilikləri təcrübəyə tətbiq etmək üçün lazım olan bilikləri təcrübəyə tətbiq etmək üçün lazım olan bacarıq və vərdişlərə məqsədyönlü yanaşmaqla ifadə olunur. Təlim məqsədə yönəlmiş prosesdir. İnsanın öyrənmə mərhələsi məhz buradan başlayır. Təlim prosesi məqsədyönlü, mütəşəkkil və planlı öyrənmə ilə bağlıdır. Təlim prosesində iki tərəf iştirak edir. Öyrədən-müəllim və öyrənən-müəllim olur. Müəllim və şagirdin qarşılıqlı fəallıqlarının təsiri altında şagirdlər bilik, bacarıq və vərdişlərə yiyələnirlər. Müəllim isə bu prosesi idarə edir. Təlim fəaliyyətini təşkili və həyata keçirilməsi üçün öyrənmənin quruluşunu nəzərə almaq vacibdir. Öyrənmənin əsasında idrak, təlim motivləri, məqsədləri və tədris məsələləri durur. Təlim davamlı inkişaf edən prosesdir. Bu inkişaf onun məzmunun, metodlarının yeniləşməsində, şagirdlərin isə zehni fəallığını artmasında özünü göstərir. Təlimin hərəkətverici qüvvəsi onun daxili ziddiyyətləridir. Təlimdə əsas ziddiyyət hesab olunur. Yeni təlim vasitələrini seçmə yolu ilə müəllim bu ziddiyyətləri həll etmək imkanı tapır. Bu ziddiyyətlərin həll olunması sayəsində də şagirdlərin inkişafı, onların tələbatlarına uyğun biliklər qazanılması imkanlarını əldə edir. Təlim prosesində şagirdlər sadəcə öyrənmir, öyrənə-öyrənə inkişaf edir. Pedaqoji ədəbiyyatlarda şagirdin öyrənmə prosesini onun fəaliyyəti ilə bağlayırlar. Pedaqoq öyrənin fəallaşması üçün lazımi şərait yaradır, onu istiqamətləndirir, daha doğrusu, onun işinə nəzarət edir, ona lazımi məlumat və vasitələr təqdim edir. Təlim şagirdlərin fəal idraki-təlim fəaliyyətinin təşkili və stimullaşdırılmasının məqsədyönlü pedaqoji prosesidir ki, burada elmi-bilik, bacarıq və vərdişlərin mənimsənilməsi, yaradıcı bacarıqların, dünyagörüşü və mənəvi-estetik baxışların inkişafı özünü göstərir. Əgər pedaqoq öz şagirdlərində biliklərin əldə edilməsində lazımı dərəcədə fəallıq oyada bilmirsə, o zaman, o təlim stimullaşmır. Yəni təlim baş tutmur, şagird isə yalnız formal şəkildə dərslərdə iştirak edir. Buna görə də təlim prosesində bir sıra vəzifələri həyata keçirmək zəruridir: öyrənənlərin idrak-təlim fəallığını stimullaşdırılması; elmi bilik və bacarıqları əldə etmək üçün idrak fəaliyyətinin təşkili; təfəkkürün, yaddaşın yaradıcı bacarıqların inkişafı; tədris bacarıq və vərdişlərin təkmilləşdirilməsi;

elmi dünyagörüşünün və mənəvi-estetik mədəniyyətinin işlənib hazırlanması. Qeyd etmək lazımdır ki, təlim prosesinin səmərəli nəticə alması üçün öyrədən və öyrənin birgə səyinə ehtiyac vardır. Müəllim hər zaman çalışmalıdır ki, təlimin təşkilini öyrənənin marağına dair təşkil etsin. Bu ona əsas verir ki, təşkil edilən təlim şagirdin maraq dairəsinə uyğundursa, o zaman, şagirdin dərsə motivasiyasının artmasına təkan verir. Yaşadığımız dövrə nəzər keçirsək bütün fəaliyyət növlərində texnologiyanın rolunun əsas olduğunu görmək mümkündür. Eyni şəkildə təlimin inkişafı və yaxşı nəticə verməsi üçün, şagirdlərin təlimə qarşı marağının oyatmaq və onlarda təlim fəaliyyətinə qarşı motivasiyasını yüksəldilməsi və digər səbəblərə əsasən təlimdə texnologiyaların istifadəsinə geniş yer verilməsi məsləhət olunur. Bu səbəbdən müasir təlim, müasir dərs problemi aktuallıq baxımından meydana gəlir, elmə tələbat artır, keyfiyyətli bilik tələb olunur. Təlimin bu xüsusiyyətləri tarix boyu nəzərə alınmış və pedaqoji prosesin qanunlarında dəqiq müəyyən olunmuşdur. Yəni pedaqoji prosesin ictimai-mənəvi, mədəni, elmi-texniki həyatla əlaqələndirlməsi qanunu əsasında həyata keçiriliməsidir. Bunsuz təlim müasir dövrün tələblərini ödəyə bilməz (internetdən, kompüterdə, distant təhsil, elektron kitablar, analtik praktik təhlil, şüurluluq fəaliyyətinin maksimum həyata kecirilməsi və s.). Pedaqoji texnologiya pedaqoji məsələlərin həllinə yönəldilmiş fəaliyyətin əvvəlcədən layihələşdirilərək planlı və ardıcıl həyata keçirlməsidir. Müstəqil respublikanın davamlı inkişafı insan potensialının inkişafından, keyfiyyətli təhsil sistemindən, təhsil sisteminin inkişafı isə bu sistemdə çalışanların pedaqoji ustalığından asılıdır. Qeyd etmək lazımdır ki, keyfiyyətli təhsilin aspektləri kifayət qədər genişdir və bunların yerinə yetirilməsi təhsil işçilərinin pedaqoji ustalığının artırılmasından asılıdır.

Zaman keçdikcə köhnəliklə yeniliyin təcəssümü olan təhsil ənənələrinin mübarizəsi nəticə etibarı ilə təhsil sisteminin inkişafını şərtləndirən amillərdən birinə çevrilib. Hərçənd ki, təhsilimizin tərəqqisinə, dünya təcrübəsi əsasında qarşılıqlı zənginləşməsinə əngəllər törədən mənfi təmayüllü ənənələr də mövcud olmuşdur. Bununla belə, Azərbaycan təhsili ötən əsrin 20-ci illərindən başlayaraq 70 il ərzində kommunist ideologiyasının məngənəsində olsa da, ölkəmizin ümumi təhsilində qədim xalq pedaqogikasından, maarifçilik hərəkatlarından, milli xüsusiyyətlərimizdən qaynaqlanan və əsasən də insanın mənəvi dünyasının formalaşmasına yönəlmiş təlim-tərbiyə ənənələri bütün məqamlarda özünün saflığını və yüksək dəyərini bu günədək qoruyub saxlamış və getdikcə daha da möhkəmlənməkdədir. İnkişaf etmiş dünya dövlətlərinin timsalında da açıq-aydın görünür ki, təhsil sisteminin tərəqqi yolunu tutması, özəllikləri ilə seçilməsi, beynəlxalq təcrübənin öyrənilməsinə, qarşılıqlı zənginləşməyə giriş hüququ qazanması ölkənin milli müstəqilliyi ilə birbaşa bağlıdır. Vaxtilə Azərbaycanda bütün təhsil fəaliyyətlərinin mərkəzin ideologiyası, siyasi-sosial sifarişi əsasında həyata keçirildiyi, tədris proqramları və dərsliklərin böyük əksəriyyətinin də mərkəzləşdirilmiş qaydada hazırlanması, insanları milli zəmindən, soykökündən uzaqlaşdıran ümumiləşdirilmiş “sovet vətəndaşı” məfhumunun yaradılması bu gün yaxın keçmişin hamıya məlum olan real faktlarıdır. Düşündürücülükdən çox hafizəyə əsaslanan əzbərçilik, şagirdyönlülük və şəxsiyyətyönlülükdən çox fənyönlülük, müstəqillik və azadfikirliliyə qarşı dözümsüzlük, yaradıcılıq və təşəbbüskarlıq meyllərinin lazımınca qiymətləndirilməməsi, şagirdlərə təhsil prosesinin bərabərhüquqlu üzvü kimi deyil, “obyekt” kimi yanaşılması, ateist ideyaların təbliği və s. sovet təhsil sistemində kök salmış ənənələr idi. Hazırda dövlət müstəqilliyimizin ideoloji təsiri ilə təhsil leksikonumuza

daxil olmuş “yeni pedaqoji təfəkkür” anlayışı pedaqoji-psixoloji tədqiqatlarda geniş işlənməkdədir və artıq müasir dövrün təhsil ənənəsinin rəmzinə çevrilmişdir. Əlbəttə, təhsildə müasirlik təkcə zamanla deyil, zamanın nəbzini tutan dünyagörüşlə, təfəkkür tərzi ilə, yeniliklərə münasibətlə ölçülür ki, bütün bunlar da “yeni pedaqoji təfəkkür” müstəvisində meydana çıxır. Təhsilin humanistləşdirilməsi, diferensiallaşdırılması, fərdiləşdirilməsi, demokratikləşdirilməsi ideyalarının təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri olaraq təsbit edilməsi; ümumi təhsilin məzmununun dövlət standartları üzrə nəticəyönlülük, şəxsiyyətyönlülük, şagirdyönlülük, inteqrativlik kimi didaktik prinsplər zəminində müəyyənləşdirilməsi, “Kurikulum” təhsil formatının ərsəyə gətirilməsi; bütövlükdə ümumi təhsilin, habelə tədris fənlərinin məqsəd və vəzifələrinə, şagird nailiyyətlərinin qiymətləndirilməsi siyasətinə qarşı yeni baxış və yanaşmaların təşəkkülü; “müəllim-şagird”, “məktəb-valideyn” əlaqələrinin pedaqoji-psixoloji cəhətdən əsaslandırılmış əməkdaşlığa çevrilməsi məhz yeni pedaqoji təfəkkürün təzahürüdür. Kiçik yaşlı məktəblilərin təlim fəaliyyətinin motivasiyalaşdırılması təhsil prosesinin ən vacib aspektlərindən biridir. Şagirdlərin marağını cəlb etmək və onların təlim prosesində fəal iştirakını təmin etmək üçün motivasiya əsas rol oynayır. Motivasiyanın təmin edilməsi isə müxtəlif metod və texnikaların istifadəsi ilə mümkündür. Kiçik yaşlı şagirdlərin diqqətini cəlb etmək və onların təlim prosesinə marağını artırmaq üçün müəllimlər təlim materiallarını əyləncəli və maraqlı formada təqdim etməlidirlər. Bu məqsədlə, interaktiv tədris metodlarına, oyun əsaslı öyrənmə yanaşmalarına və texnologiyanın istifadəsinə geniş yer verilir. Motivasiyanı artırmaq üçün istifadə edilə bilən digər bir üsul isə şagirdlərin nailiyyətlərinin dəyərləndirilməsi və onların tədris prosesində irəliləyişlərinin müsbət şəkildə vurğulanmasıdır. Müəllimlərin şagirdlərin hər kiçik uğurunu belə qeyd etməsi onların özlərinə inamını artırır və daha yaxşı nəticələr əldə etmək üçün həvəsləndirir. Dəyərləndirmə prosesində şagirdlərin nailiyyətlərinə fərdi yanaşma tətbiq edilməlidir, yəni hər bir şagirdin potensialı nəzərə alınaraq, onun inkişafı fərdi olaraq qiymətləndirilməlidir. Davamlı və düzgün dəyərləndirmə şagirdlərin tədris prosesinə müsbət münasibət formalaşdırmasına kömək edir. Təlim prosesinin məqsədi yalnız biliklərin ötürülməsi deyil, həm də şagirdlərin öz təhsil prosesini aktiv şəkildə idarə etməsi, öyrənməyə maraq göstərməsi və biliklərə yaradıcı şəkildə yanaşmasıdır. Dəyərləndirmə təlim prosesinin ən vacib elementlərindən biridir və onun əsas məqsədi şagirdlərin öyrənmə fəaliyyətini qiymətləndirmək, onların inkişaf səviyyəsini müəyyənləşdirmək və tədris prosesinin effektivliyini artırmaqdır. Dəyərləndirmə yalnız şagirdlərin biliklərini yoxlamaq və nəticələrini ölçmək məqsədi daşımır, həm də təlimin keyfiyyətini yüksəltmək, şagirdləri motivasiya etmək və onların tədris fəaliyyətinə aktiv iştirakını təmin etmək məqsədi daşıyır.

Dəyərləndirmə çoxşaxəli və davamlı bir prosesdir. O, şagirdlərin bilik, bacarıq və vərdişlərinin inkişafını izləmək və onların tədris prosesində hansı irəliləyişlər əldə etdiklərini müəyyən etmək üçün istifadə olunur. Eyni zamanda, dəyərləndirmə müəllimlərə şagirdlərin zəif və güclü tərəflərini daha yaxşı anlamağa, təlim prosesini buna uyğun tənzimləməyə imkan verir. Bu, müəllimin öz pedaqoji fəaliyyətini təkmilləşdirməsinə və tədris prosesini daha effektiv şəkildə təşkil etməsinə kömək edir.

Dəyərləndirmənin bir neçə əsas məqsədi var:

**Öyrənmə prosesinin monitorinqi:** Dəyərləndirmə şagirdlərin təlim prosesində hansı səviyyədə olduğunu göstərir. Müəllimlər bu məlumat əsasında tədris metodlarını tənzimləyə bilərlər. Həmçinin, bu proses şagirdlərin hansı bilik və bacarıqlarını möhkəmləndirmək və hansı

sahələrdə əlavə köməyə ehtiyac duyduqlarını göstərir.

**İrəliləyişin izlənilməsi:** Dəyərləndirmə şagirdlərin zamanla hansı irəliləyişlər əldə etdiyini izləməyə imkan verir. Bu, həm şagirdlərin təlim prosesindəki inkişafını qiymətləndirmək, həm də onların nailiyyətlərini qeyd etmək üçün vacibdir. Şagirdlər öz uğurlarını gördükcə, təlimə qarşı motivasiyaları artır və bu, onların daha da yaxşı nəticələr əldə etməsinə səbəb olur.

**Şagirdlərin motivasiyasının artırılması:** Düzgün və davamlı dəyərləndirmə şagirdləri həvəsləndirir. Şagirdlərin əldə etdikləri nailiyyətlər onların motivasiyasını artırır və daha çox öyrənməyə həvəs yaradır. Müsbət geridönüş və uğurların qeyd edilməsi şagirdlərin təlim prosesinə daha fəal yanaşmasına səbəb olur.

**Şagirdlərin özünəinamının inkişafı:** Dəyərləndirmə prosesi vasitəsilə şagirdlər öz nailiyyətlərini görəndə və müəllimlər tərəfindən müsbət qiymətləndirildikdə, onların özünəinamı artır. Şagirdlər öz potensiallarını daha yaxşı dərk edir və təlim prosesində daha fəal olurlar. Onların özünəinamı artdıqca, yeni biliklər əldə etmək və problemləri həll etmək üçün daha çox həvəs göstərirlər.

**Gələcək təlim fəaliyyətinin planlaşdırılması:** Dəyərləndirmə şagirdlərin tədris prosesində hansı nöqtədə olduqlarını və gələcək təlim fəaliyyətləri üçün nə kimi dəyişikliklərin lazım olduğunu göstərir. Müəllimlər bu məlumatlardan istifadə edərək şagirdlərin fərdi ehtiyaclarına uyğun dərs planları hazırlaya bilərlər. Bu, hər bir şagirdin tədris prosesində daha yaxşı iştirak etməsinə və onlara uyğun tədris metodlarının seçilməsinə imkan yaradır.

Dəyərləndirmənin müxtəlif növləri mövcuddur və hər biri tədris prosesinin müxtəlif mərhələlərində istifadə olunur:

**Formativ dəyərləndirmə:** Formativ dəyərləndirmə tədris prosesinin gedişində həyata keçirilən davamlı qiymətləndirmədir. Bu növ dəyərləndirmə müəllimə və şagirdə hansı sahələrdə inkişaf lazım olduğunu göstərir və dərhal müdaxilə etməyə imkan verir. Formativ dəyərləndirmə sayəsində şagirdlərin zəif tərəfləri vaxtında aşkar edilir və onlar möhkəmləndirilir. Bu proses nəticəsində şagirdlərin özləri də tədris prosesinə daha çox cəlb olunur və onların inkişafına real zamanlı nəzarət edilir.

**Summativ dəyərləndirmə:** Summativ dəyərləndirmə müəyyən tədris dövrünün sonunda aparılır və şagirdlərin ümumi bilik səviyyəsini qiymətləndirir. İmtahanlar, yarımillik və illik qiymətləndirmələr summativ dəyərləndirmənin tipik nümunələridir. Bu növ dəyərləndirmə şagirdlərin tədris dövrü ərzində hansı nəticələri əldə etdiklərini və təlim məqsədlərinə çatıb-çatmadıqlarını ölçmək üçün istifadə olunur.

**Diaqnostik dəyərləndirmə:** Diaqnostik dəyərləndirmə tədris prosesinin əvvəlində və ya yeni bir mövzuya başlamazdan əvvəl şagirdlərin ilkin bilik səviyyəsini müəyyən etmək üçün istifadə edilir. Bu dəyərləndirmə müəllimə şagirdlərin hansı səviyyədən başlayaraq öyrənməyə davam etməli olduğunu göstərir. Beləliklə, təlim prosesi şagirdlərin bilik səviyyəsinə uyğun tənzimlənir və onların ehtiyaclarına uyğun dərslər hazırlanır.

**Özünü dəyərləndirmə:** Özünü dəyərləndirmə şagirdlərin öz fəaliyyətlərini qiymətləndirmələrinə imkan verən bir prosesdir. Bu, şagirdlərin öz öyrənmə prosesinə daha çox məsuliyyət daşımasına və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməsinə kömək edir. Özünü dəyərləndirmə vasitəsilə şagirdlər hansı sahələrdə daha çox çalışmalı olduqlarını müəyyən edir və öz tədris prosesini idarə edə bilirlər.

**Rəy və geridönüş:** Müəllimlər tərəfindən verilən geridönüş və rəy şagirdlərin dəyərləndirilməsində çox mühüm rol oynayır. Geribildirim şagirdlərə harada səhv etdiklərini, nəyi düzəltməli olduqlarını və necə daha yaxşı nəticələr əldə edə biləcəklərini göstərir. Eyni zamanda, müsbət geribildirim onların motivasiyasını artırır və özünəinamını gücləndirir.

**Dəyərləndirmənin texnologiyalar vasitəsilə həyata keçirilməsi:** Müasir təhsil sistemində texnologiyalar dəyərləndirmə prosesinin ayrılmaz bir hissəsinə çevrilmişdir. Elektron testlər, onlayn imtahanlar, rəqəmsal qiymətləndirmə platformaları vasitəsilə dəyərləndirmə daha sürətli, şəffaf və obyektiv olur. Texnologiyaların tətbiqi müəllimlərə şagirdlərin nəticələrini daha asan şəkildə izləmək və onlara real zamanlı geridönüş vermək imkanı yaradır. Bu isə tədris prosesinin daha təsirli və şagirdyönlü olmasına şərait yaradır. Nəticə olaraq dəyərləndirmə təlim prosesinin ən vacib komponentlərindən biridir və şagirdlərin bilik səviyyəsinin qiymətləndirilməsi ilə yanaşı, onların tədris prosesinə aktiv cəlb edilməsini, motivasiya edilməsini və irəliləyişlərinin izlənilməsini təmin edir. Düzgün və obyektiv dəyərləndirmə şagirdlərə öz potensiallarını kəşf etməkdə və özlərinə inam hissi yaratmaqda yardımçı olur. Bu proses təlimin keyfiyyətini yüksəldir və müəllimlərə şagirdlərin fərdi ehtiyaclarına uyğun tədris metodlarını tətbiq etmək imkanı verir.

**Problemin aktuallığı.** Məktəblilərin təlim fəaliyyətinin motivasiyalaşdırılması və dəyərləndirilməsi probleminin aktuallığı, şagirdlərin təhsilə marağının azalması, obyektiv dəyərləndirmə sistemlərinin çatışmazlığı və fərdi yanaşmanın zəifliyindən qaynaqlanır. Bu amillər təhsilin keyfiyyətini aşağı salır və müasir təhsil tələblərinə cavab verməkdə çətinlik yaradır.

**Problemin elmi yeniliyi.** Şagirdlərin motivasiyasını artırmaq və daha obyektiv dəyərləndirmək üçün yeni pedaqoji texnologiyaların və fərdi yanaşmaların tətbiqindədir. Bu yanaşmalar motivasiyanın psixoloji aspektlərini və fərdi öyrənmə üslublarını nəzərə alır.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Şagirdlərin təlimə marağını artırmaq və öyrənmə nəticələrini düzgün qiymətləndirmək üçün yeni metod və texnologiyaların tətbiqidir. Bu, təhsil prosesini daha effektiv və fərdi ehtiyaclara uyğun hala gətirərək təhsilin keyfiyyətini artırır.

## Ədəbiyyat

1. Əlizadə H. Ə., Abbasov A. N. Pedaqogika. Bakı: Renesans, 2000.
2. Əliyev A. Təlim metodları və onlarda istifadə problemi // Azərbaycan məktəbi, 2005, №2.
3. Əhmədov H.M. Azərbaycan məktəbi və pedaqoji fikir tarixi. Bakı, Elm, 2002.
4. Əliyev A. Ümumi təhsilin müasir kurikulumları və yeni Pedaqoji texnologiyalar // “Kurikulum”. Bakı, 2008, № 2.
5. Kazımov N.M., Həşimov Ə.Ş. Pedaqogika. Bakı: Maarif, 1996.
6. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002.
7. Kərimov Y.Ş. Təlim metodları. Bakı, 2007.
8. https://www.scribd.com/document/651026784/4-Muhazir%C9%99-ATM-4-Yeni-2023
9. https://prezi.com/23bv1utenhb7/drs-tlimin-sas-tskili-formas-kimi/
10.https://www.muallim.edu.az/news.php?id=4304&fbclid=IwAR26bGVyeag_CzkhKcnq

IWHZkqUq67c4MtCiFXRP3XsJZQ1cfjYUzoD_Ro&sa=X&ved=2ahUKEwiXrYmfrKLnAhUFyKYKHWePDNMQFjAIegQIABAB

**А.М. Амирова**

**Меняющиеся парадигмы высшего образованияп**
**Резюме**

В статье рассматривается применение новых педагогических технологий и индивидуальных подходов, позволяющих сделать мотивацию удержания и оценку более объективной. Вне зависимости от систем, где невозможно исследовать проблемы. В статье представлены практические решения данных проблем и направлены на повышение качества образования.

**A.M. Amirova**

**Changing paradigms of higher education**
**Summary**

The article discusses the application of new pedagogical technology and individual approaches to make retention motivation and assessment more objective. Regardless of systems where it is impossible to investigate problems. The article presents practical solutions to these issues and aims to improve the quality of education.

**Redaksiyaya daxil olub:** 18.10.2024